

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 237 (24.374)

*21 dekabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb



Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb.

Cevdet Yılmaz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti hər fürsətdə və beynəlxalq təşkilatlar çərçivəsində keçirilən tədbirlərdə Türkiyə Prezidenti ilə görüşdüyünü və müzakirələri davam etdirdiyini vurğuladı.

Cevdet Yılmaz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı və Ulu Öndər Heydər Əliyevin əsl liderlik nümayiş etdirərək Azərbaycan dövlətinin qurucusu olduğunu qeyd etdi.

Türkiyənin vitse-prezidenti tarixi Qələbə və Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə bir daha təbriklərini çatdırdı, işğaldan azad olunmuş ərazilərdə geniş miqyaslı bərpa-quruculuq işlərinin Türkiyədə böyük sevinclə qarşılandığını vurğuladı. Bu xüsusda ermənilər tərəfindən basdırılmış minaların hələ də böyük təhlükə törətdiyi və yenidənqurma işlərinə mane olduğu bildirildi.

Vitse-prezident Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycanın göstərdiyi qardaşlıq dəstəyinə görə təşəkkürünü bildirdi, Kahramanmaraşda həyata keçirilən bərpa və tikinti işlərini xüsusilə qeyd etdi. Cevdet Yılmaz dünyanın yaşıl və rəqəmsal transformasiya dövründə olduğunu nəzərə alaraq Azərbaycanla Türkiyənin bu sahədə də birgə çalışmasının və əməkdaşlığının vacibliyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin Preferensial Ticarət Sazişinin imzalanmasından sonra daha da artmasından məmnunluq ifadə olundu. Həmçinin gələn il Azərbaycan-Türkiyə hökumətlərarası komissiyanın iclasının keçirilməsi, eləcə də ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq, təşkilatın daha da gücləndirilməsi, digər qardaş türk ölkələri ilə işbirliyinin dərinləşdirilməsinə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Xocalı rayonlarına səfər ediblər



Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Xocalı rayonlarına səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım rayonun Qırmızı Bazar qəsəbəsində olublar.

Qəsəbə 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Qırmızı Bazar qəsəbəsi separatçılardan təmizlənib.

Qəsəbənin ərazisi təbii sərvətlər, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. İşğaldan əvvəl qəsəbədə gövdəsinin diametri 600 santimetr, hündürlüyü 25 metr, yaşları min və iki min il olan iki Şərq çınarı qədim təbiət abidəsi kimi qorunurdu. Qəsəbə, eyni zamanda kənd təsərrüfatı və turizm potensialına malikdir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 20-də Xocavənd rayonunun Şıx Dursun kəndində olublar.

Dövlətimizin başçısı və birinci xanım kənddəki “Çinar müqəddəs yer” abidə kompleksinə baxış keçiriblər.

Kənddə 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar nəinki Azərbaycanın, dünyanın ən yaşlı ağaclarından biri sayılır. Ağacın hündürlüyü 54 metr, gövdəsinin diametri 27 metrdir. Ağacın yaxınlığında onu su ilə təmin edən Tenqri bulağı yerləşir.

***

Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonunda olublar.

Dövlətimizin başçısı və birinci xanım rayonun qədim Şuşakənd kəndinin ərazisinə baxış keçiriblər.

Qədim tarixə malik kənddə bəzi tədqiqatlara görə, eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış türkdilli tayfalar məskunlaşıb.

Kəndin ərazisi turizm və kənd təsərrüfatı potensialına malikdir.

**AZƏRTAC**

## Səlahiyyətli nümayəndə Kəngərlidə vətəndaşları qəbul edib



Dekabrın 20-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Kəngərli rayonunda olub, Ümummilli Liderimizin rayon mərkəzində ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstəsi qoyub.

Sonra rayon sakinləri ilə görüş olub.

Görüşdə 2022-ci ilin dekabrında rayon sakinləri ilə ilk görüşünü xatırladan səlahiyyətli nümayəndə ötən dövrdə qaldırılan məsələlər və onların həlli istiqamətində görülən işlər barədə məlumat verib.

Fuad Nəcəfli bildirib ki, icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən muxtar respublikanın bütün bölgələrində mühüm infrastruktur layihələri reallaşdırılacaq, yeni iş yerləri açılacaq, əhalinin rifah halı daha da yüksələcək. Proqram çərçivəsində Kəngərli rayonunun Qıvraq qəsəbəsində müasir məktəb binası inşa olunacaq, yeni su və kanalizasiya şəbəkəsi çəkiləcək, bütün yollar yenidən qurulacaq.

2023-cü ili ölkəmiz və Naxçıvan Muxtar Respublikası üçün uğurlu il kimi dəyərləndirən səlahiyyətli nümayəndə sakinləri fevral ayında keçiriləcək prezident seçkilərində fəal iştiraka çağırıb, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

Görüş zamanı sakinlərin müraciətləri və problemləri dinlənilib. Bütün müraciətlər protokollaşdırılaraq onların həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyi bildirilib.

**“Şərq qapısı”**





# Heydər Əliyev İli

## Hər bir azərbaycanlı üçün gələcəyə inam – həmrəylik



*Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün gələcəyə inamdır. Hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir.*

Hər birimiz ***"Azərbaycan mənim qibləgahımdır"***, – deyən böyük şəxsiyyətin fəaliyyətində sonsuz fədakarlığın şahidi olmuşuq. Azərbaycanı kərpic-kərpic tikərək alınmaz qalaya çevirən Ulu Öndərimiz Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, onun milli konsepsiyasını yaratmışdır. Bu konsepsiya əsasında xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan layiq olduğu müstəqilliyə qovuşmuşdur.

Heydər Əliyev siyasi yolunun ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünyada iqtisadi və siyasi sabitliyin qorunduğu, bütün sahələr üzrə davamlı inkişaf edən ölkələrdən birinə çevrilib. Azərbaycan bu siyasi kursa sadiq olmaqla bu gün beynəlxalq müstəvidə möhtəşəm nailiyyətlər ortaya qoyur. İqtisadi cəhətdən güclü, siyasi cəhətdən isə əsl müstəqil dövlətə çevrilmiş Azərbaycanın mövqeyi regional və beynəlxalq məsələlərdə mütləq nəzərə alınır. Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. Bu, Azərbaycanın artan mövqeyinin, nüfuzunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında deyilir: *"Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir".*

Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün siyasi uğurlarının əsasını təşkil edən, ONU dünya azərbaycanlılarının Ümummilli Lideri səviyyəsinə yüksəldən milli dövlətçilik təlimi Azərbaycançılıq məfkurəsidir. Azərbaycançılıq ideyasını siyasi ideologiya səviyyəsinə məhz dahi Heydər Əliyev çatdırmışdır. Məhz Ulu Öndərimizin zəngin siyasi təcrübəsi və uzaqgörənliyi sayəsində Azərbaycanda sabitlik, tolerantlıq, müasir inkişaf və tərəqqi təmin edilmişdir. Görkəmli dövlət xadiminin bir böyük tarixi uğuru da özündən sonra müstəqil Azərbaycanın xoşbəxt və firavan gələcəyinin etibarlı təminatına çevrilən mükəmməl siyasi-ideoloji məktəb yaratması idi.

Ulu Öndər Heydər Əliyev bildirirdi ki, müstəqil Azərbaycanın əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir. Biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini inkişaf etdirməliyik. Ümummilli Liderin missiyası yalnız Azərbaycan dövlətinin dayaqlarının möhkəmləndirilməsi, müstəqilliyin daimiliyinin, sarsılmazlığının təmin edilməsi kimi şərəfli vəzifəni yerinə yetirməklə məhdudlaşmırdı. O, müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal ətrafında səfərbər edən Azərbaycançılıq ideologiyasını da yaratdı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultayda dərinməzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi. ***"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*** – müdrik rəhbərin bu kəlamları Azərbaycançılığın ideya əsaslarına, hər bir azərbaycanlı üçün isə milli qürur rəmzinə çevrilmişdir.

Bu gün Ümummilli Liderimizin bizə ərməğan etdiyi Azərbaycanın dövlət müstəqilliyi etibarlı əllərdədir. Xalqımız Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı cənab İlham Əliyev şəxsində Azərbaycanın müstəqilliyinin əbədiliyinə, xalqımızın firavan gələcəyinə, ölkəmizin inkişaf və tərəqqisinə qarant olan yeni bir lider qazanmışdır. Qədirbilən xalqımız müstəqilliyimizin memarı və qurucusu dahi Heydər Əliyevin milli dövlətçilik ideyalarını əsas tutaraq müstəqillik yolu ilə, inamla daha xoş gələcəyə doğru irəliləyir.

Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan cənab İlham Əliyev müasir və çevik siyasəti kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. Dövlət başçısı sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda milli maraqları dönmədən uğurla müdafiə edir. Prezident cənab İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu getdikcə artır. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Bakı şəhərində 2006-cı ildə Dünya Azərbaycanlılarının II, 2011-ci ildə III, 2016-cı ildə isə IV qurultaylarının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Bu qurultaylar dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Eyni zamanda qurultaylar bir daha dünya azərbaycanlılarının Azərbaycan dövlətinin, Azərbaycançılıq ideyasının ətrafında sıx birləşdiyini təsdiqlədi.

Xalq olaraq bu birliyimizin ən parlaq nailiyyətini 44 günlük müharibədə əyani şəkildə gördük. Bu gün Azərbaycan xalqı qürurludur. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz xalqımızın yenilməzliyini, məğrurluğunu bütün dünyaya nümayiş etdirdi. Bir daha sübut olundu ki, tarixinə, hər qarış torpağına sahib çıxan xalq məğlubedilməzdir. 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın zəngin dövlətçilik tarixinin Qələbə səhifəsini yazmaqla Ermənistana, ona havadarlıq edən dövlətlərə tarix, hüquq dərsini keçdi. Bu dərsləri dövlət başçısı cənab İlham Əliyev müharibənin getdiyi dövrlərdə xarici mətbuata müsahibələri ilə keçmişdi.

Haqq-ədalət Zəfər çaldı. Bu Qələbəmizdə dünya azərbaycanlılarının rolu inkaredilməzdir. Döyüş meydanında üstünlüyümüzə əsas yaradan diplomatik qələbəmizdə dünya azərbaycanlılarının da öz payı vardır. Məhz bu qürur dünya azərbaycanlılarını Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşada bir araya gətirərək Zəfər Qurultayını keçirmələrini şərtləndirdi. Soydaşlarımız postmünaqişə dövründə qarşılarında dayanan vəzifələri Şuşada müzakirə etdilər. Bu məkandan dünyaya ünvanlanan birlik, həmrəylik mesajları Azərbaycan xalqının öz torpağına sahib çıxan xalq olduğunu bir daha təsdiqlədi.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Qurultayında səsləndirdiyi bu fikirlər hər birimizdə böyük qürur hissi yaratdı: ***"Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".***

Azərbaycanın Zəfəri ilə bitən Vətən müharibəsində dünya azərbaycanlıları bir amal ətrafında həmrəy olduğunu nümayiş etdirdi, parlaq Zəfərimizin qürurunu bir daha Şuşa zirvəsində yaşadılar, qurultayda dünya azərbaycanlıları bir daha öz sarsılmaz və əbədi həmrəyliklərini dünyaya bəyan etdilər.

*Dahi Öndər Heydər Əliyevin Azərbaycan naminə gördüyü işlər bu gün ölkəmizin milli sərhədlərini aşaraq, bütövlükdə, regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülüb, lakin sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmasıdır. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır!*

**Sevda QULUYEVA**
***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## *"Xüsusi tapşırıq"* kitabının təqdimatı keçirilib

*AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Ulu Öndər Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfullah Qurbanov və "Naxçıvan" Universitetinin baş müəllimi Rəna Qurbanovanın birgə müəllifi olduğu "Xüsusi tapşırıq" adlı kitabının təqdimatı keçirilib.*

Təqdimat mərasimini bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə yeni nəşr olunmuş kitab dahi şəxsiyyətin 1990-1993-cü illərdə muxtar respublikanın təhlükəsizliyi ilə bağlı həyata keçirdiyi tədbirlərdən bəhs edir. Xüsusilə Naxçıvanın müdafiəsi ilə bağlı Ulu Öndərin tapşırığına əsasən səlahiyyətli hərbi nümayəndə tərəfindən ölkəmizin digər regionlarından muxtar respublikaya müxtəlif yardımların, o cümlədən silah-sursatın gətirilməsi və bunun




da nəticəsində Naxçıvanın etibarlı müdafiəsinin təşkili kitabın ana xəttini təşkil edir.

Qeyd olunub ki, "Xüsusi tapşırıq" adlı kitab Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə atılmış ən mühüm addımların mahiyyətini ortaya qoymaqla yanaşı, ilk milli ordu quruculuğu sahəsində görülmüş işləri də özündə ehtiva edir.

Kitabın redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Səbuhi Həsənov bildirib ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxmış yeni nəşr dörd bölmə, nəticə və rəsmi sənədlərin fotoşəkillərindən ibarətdir. Kitabın bölmə hissələrində Naxçıvanın blokadaya düşməsindən sonra yaranmış ağır və mürəkkəb vəziyyətdən, xüsusi dövlət əhəmiyyətli tapşırığa uyğun olaraq muxtar respublikaya silah və sursatın daşınmasından, xalqımızın vətənpərvər oğulları tərəfindən qədim diyara edilən yardımlardan bəhs olunur. Həmçinin sovet qoşunlarının Naxçıvandan çıxarılmasında ortaya çıxan çətinliklər və bu çətinliklərin necə həll olunması tarixi sənədlərlə oxucuya çatdırılır.

Diqqətə çatdırılıb ki, kitabda milli ordunun yarandığı ilk dövrlərdə Türkiyə Silahlı Qüvvələri mənsublarının muxtar respublikada ordu quruculuğu işinə verdiyi töhfələr, müxtəlif dövrlərdə doğma diyarda



hərbi attaşe olaraq çalışmış hərbçilərin Naxçıvan haqqında xatirələri də yer alıb.

Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasında Baş konsulu Asip Kaya yeni nəşrin Naxçıvanın müstəqillik dövrü tarixinin, eyni zamanda həmin dövr Türkiyə-Naxçıvan əlaqələrinin öyrənilməsi baxımından əhəmiyyətini vurğulayıb, kitabın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ən gözəl töhfə olduğunu qeyd edib.

Tədbirdə çıxış edənlər müəllifləri – Urfullah Qurbanov və "Naxçıvan" Universitetinin baş müəllimi Rəna Qurbanovanı təbrik edib, onlara işlərində uğurlar arzu ediblər.

Sonra müəlliflər kitab haqqında ümumi fikirlərini bölüşüb, iştirakçılara minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



**Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.**

## Nobel mükafatçısı Əziz Səncərin azərbaycanlı tələbəsi

*Rubrikamızın budəfəki müsahibi Amerikada yaşayan həmvətənimiz, Nobel mükafatçısı Əziz Səncərin tələbəsi **Xəqani Eynullazadə**dir. O, bakalavr təhsilini Azərbaycan Tibb Universitetində Tibbi biologiya ixtisası üzrə alıb. Magistratura təhsilini Böyük Britaniyanın Glasgow Universitetində Tibbi genetika ixtisası üzrə başa vurub. Hazırda ABŞ-ın Wisconsin-Madison Universitetində Genetika ixtisası üzrə doktorantura təhsilini davam etdirir.*



2023-cü ilin oktyabr ayında "Naxçıvan" Universitetində dünya şöhrətli alim, Nobel mükafatçısı Əziz Səncərin onlayn iştirakı ilə tədbir keçirilirdi. Həmin tədbirdə Əziz Səncər vurğuladı ki, bir çox ölkələrdən onun yanında, laboratoriyasında işləyən mütəxəssislər var. Ən böyük arzusu isə azərbaycanlı elm adamlarının onunla birgə tədqiqat aparması olub. Alimin bu arzusu 2018-ci ildə gerçəkləşib. Gəlin ardını Xəqaniyə ünvanladığımız suallar çərçivəsində onun öz dilindən öyrənək:



*– Səncər laboratoriyasına necə qoşulmusunuz?*

– Mənim professor Əziz Səncərin tədqiqat qrupuna qoşulmağım onun 2017-ci ildə Azərbaycana səfəri ilə başladı. Mən o vaxt Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutunun İnsan genetikası tədqiqat qrupunda elmi işçi kimi çalışırdım. O, çıxışlarının birində azərbaycanlıları çox sevdiyini və Azərbaycandan olan tələbələrlə çalışmaq istədiyini dilə gətirmişdi. Bundan sonra ona elektron poçtdan yazaraq özümü təqdim etdim və laboratoriyasına qoşulmaq istədiyimi bildirdim. Professor Səncər bunu çox müsbət qarşıladı. Bir neçə müddət onun laboratoriyasına qoşulmaq prosesi ilə bağlı əlaqələr quruldu. Çalışdığım institutun rəhbərliyi də bu xəbərə çox müsbət reaksiya verdi və mənim Amerikaya ezam edilməyim üçün lazım olan bütün məsələlərdə dəstək verdi. Daha sonra professor Səncərin istəyi ilə, onun dostu, İqtisad Universitetinin prorektoru Elşən Bağırzadə ilə görüşdük. Bu görüşdən sonra mənim Səncər laboratoriyasına qoşulmağım təsdiqləndi. Və mən 2018-ci ilin yanvar ayından başlayaraq il yarım müddətində professor Səncərin laboratoriyasında elmi tədqiqatçı kimi çalışdım.

*– Nobel mükafatı qazanmış bir alimlə işləmək necədir?*

– Professor Səncərin laboratoriyasında işləmək mənim üçün çox möhtəşəm bir təcrübə oldu. Öz sahəsində dünyada lider olan bir tədqiqat qrupu ilə çalışmaq professional cəhətdən əvəzolunmaz bir fürsət idi. Bunun sayəsində genetika sahəsində ən müasir metodlarla işləmək və beynəlxalq səviyyədə elmi tədqiqat aparmaq təcrübəsi qazandım. Orada çalışarkən qazandığım ən mühüm elmi təcrübə, canlı orqanizmlərin genomunu dəyişməyə icazə verən və ən müasir metod olan CRISPR-Cas9 metodu ilə işləmək və bu metodu effektiv şəkildə insandan alınan hüceyrə xətlərinə laborator şəraitdə tətbiq etmək oldu. Bu metod bizə istənilən genlərin DNT-təmir prosesindəki rolunu öyrənməyə kömək edirdi. Bu illər ərzində bir neçə layihədə çalışdım və nəticədə, professor Əziz Səncərin rəhbərliyi ilə mötəbər elmi jurnallarda dərc edilən iki böyük elmi məqalənin həmmüəllifi oldum. Burada qazandığım elmi təcrübə sayəsində 2019-cu ildə ABŞ-ın ən böyük elmi-tədqiqat mərkəzlərindən olan Wisconsin-Madison Universitetinin Genetika üzrə tam təqaüdlü doktorantura proqramına qəbul edilən 10 nəfərdən biri oldum. Hazırda burada doktorantura təhsilimi davam etdirirəm.

Professor Səncərin rəhbərliyi ilə elmi tədqiqat aparmaq mənə təkcə professional cəhətdən yox, həm də fərdi inkişafım üçün də çox əhəmiyyətli idi. Çünki onun əldə etdiyi bütün böyük nailiyyətlərə, dünya səviyyəli nüfuza və qazandığı Nobel mükafatına rəğmən özünün təvazökarlığı, yanında illərlə çalışan professorlardan tutmuş yeni qoşulan tələbələrə qədər ətrafındakı bütün insanlara hörmət və qayğı ilə yanaşması, hər kəsə kömək etməsi və onları doğru yönləndirməsi məndə dərin iz buraxmışdı. Ona görə də professor Səncərin, sadəcə, elmi potensial cəhətdən yox, həm də insani cəhətdən üstün keyfiyyətli çox gözəl bir örnək olduğunu düşünürəm.

*– ABŞ-da Azərbaycanı necə təmsil edirsiniz?*

– ABŞ-da Azərbaycanı təmsil etmək mənim üçün hər zaman çox maraqlı bir təcrübə olub. Mən hər fürsətdə zəngin mədəniyyətimizi, tariximizi və ənənələrimizi həmkarlarımla və dostlarımla, dünyanın dörd bir tərəfindən gəlib ABŞ-da təhsil alan tələbələrlə bölüşürəm. Hər fürsətdə Azərbaycanın tarixi, musiqisi, rəqsi və mətbəxinin təqdim olunduğu Azərbaycan mədəniyyət gecələri təşkil edirəm. Tez-tez dostları evimə dəvət edir və onları şəxsən özüm hazırladığım plov, dolma, ləvəngi, Lənkəran çayı kimi milli mətbəximizin gözəl nümunələrinə qonaq edirəm. Bu görüşlərdə onlarla vətənimiz haqqında söhbətlər edirik. Həmçinin müxtəlif multikultural elmi, sosial tədbirlərdə iştirak edərək öz stendimizi qurur və ənənələrə Azərbaycanın mədəniyyəti, müasir nailiyyətləri və regiondakı tarixi əhəmiyyəti haqqında məlumat verməyə çalışıram. Bu, sadəcə, mədəni irsimizi paylaşmaq deyil, Vətənimiz və ümumiyyətlə, bölgəmiz haqqında yanlış anlayışları düzəltmək üçün çox əhəmiyyətlidir.

*– Tarixi Qarabağ zəfərindən sonra ABŞ-da azərbaycanlı tələbə olmaq necə idi?*

– Həm Qarabağ müharibəsi dövründə, həm də müharibədən sonra ABŞ-da azərbaycanlı tələbə olmaq qarışıq emosiyalarla dolu bir dövr idi. Müharibə dövründə bir tərəfdən xəbərləri izləmək, digər tərəfdən də, beynəlxalq arenada ölkəmizdə baş verənlər haqqında insanları maarifləndirmək məsuliyyəti var idi. Bunun üçün biz xaricdə çalışan, təhsil alan azərbaycanlılarla onlayn görüşlər keçirir, Vətənimizin haqq savaşındakı üstünlüyünü və həqiqətlərini dünyaya çatdırmaq üçün tədbirlər təşkil edirdik. Sosial şəbəkələrdə maarifləndirici paylaşımlar edir, vəziyyət haqqında məqalələr yazır, yerli qurumlara, media orqanlarına məktublar göndərirdik. Bundan əlavə, Amerikada yaşayan azərbaycanlılar olaraq kiçik fond yaratmışdıq və müharibədən əziyyət çəkənlərə kömək edirdik. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə əldə etdiyimiz tarixi Qələbədən sonra isə artıq milli qürur və sevinc hissi keçiririk. Bu qələbə bizim haqq yolunda olduğumuzun beynəlxalq səviyyədə sübutu idi. Və qələbədən sonra müxtəlif ölkələrdən olan dostlardan təbrik mesajları almaq çox qürurverici haldır.

*– Gələcəkdə Azərbaycana qayıtmağı planlaşdırırsınızmı?*

– Bəli, gələcəkdə Azərbaycana qayıtmağı planlaşdırıram. Burada əldə etdiyim bilik və bacarıqları vətənimdə elmi və akademik cəmiyyətə töhfə vermək üçün tətbiq etmək arzusundayam. Molekulyar biologiya və genetika çox önəmli və sürətlə inkişaf edən sahədir. Bizim ölkəmizdə bu sahədə ixtisaslaşmış mütəxəssislərə ehtiyac olduğunu düşünürəm. Buna görə də Azərbaycanda bu sahədə aparılan tədqiqat işlərində və yeniliklərdə iştirak etmək, Azərbaycan və beynəlxalq elmi cəmiyyətlər arasında körpülərin qurulmasına töhfə vermək istəyirəm.

*– Maraqlı müsahibə üçün təşəkkür edir, işlərinizdə uğurlar arzulayırıq.*

✍ Fariz ƏHMƏDOV

## "İnteryer dizayn" adlı fərdi sərgi nümayiş olunub



*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Təsviri incəsənət kafedrasının Dizayn ixtisasının II kurs tələbəsi Gülnar İsmayılovanın fərdi sərgisi nümayiş olunub.*

Tədbirdə universitetin rektoru Elbrus İsayev tələbələrin iştirakı ilə keçirilən sərgilərin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirilib ki, dizayn sahəsi müasir dövrün tələbidir. Rektor tələbələrin bu sahəyə maraqlı olmalarını sevindirici hal kimi qiymətləndirib. Belə sərgilərin keçirilməsinin universitet rəhbərliyi tərəfindən diqqət mərkəzində saxlanıldığını və inkişafına şərait yaradıldığını qeyd edən rektor gənc istedada bu istiqamətdə uğurlar arzulayıb.

Sərgidə Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Naxçıvan Muxtar Respublikasındakı idarəsinin rəisi Vüsal Ələkbərli, İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, Təsviri incəsənət kafedrasının müəllimi, Azərbaycanın Xalq rəssamı, professor Hüseynqulu Əliyevin çıxışları dinlənilib.

Qeyd olunub ki, bu cür sərgilərin keçirilməsi tələbələrin gələcək fəaliyyətlərində xüsusi önəm kəsb edir.

Çıxış edənlər Gülnar İsmayılovaya uğurlar arzulayıblar.

Sonra sərgiyə baxış keçirilib. Qeyd edək ki, sərgidə 39 interyer, 11 rəngkarlıq olmaqla, ümumilikdə, 50 əl işi və layihə nümayiş olunub.

***Naxçıvan Dövlət Universitetinin Media və ictimaiyyətlə əlaqələr bölməsi***

## Aktiv vergiödəyicilərinin sayı artıb

Naxçıvan Muxtar Respublikasında dekabr ayının 1-nə aktiv vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 19 faiz artaraq 14.931 olub. Hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 29.2 faiz artıb və 443 təşkil edib. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə ilin əvvəli ilə müqayisədə 19 faiz artaraq 5.306-ya çatıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Əshabi-kəhf ziyarətgahına gedən avtomobil yolu yenidən qurulur



*Dünyanın müqəddəs məkanlarından olan Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Əshabi-kəhf ziyarətgahına gedən yol təbii faktorların təsirindən yararsız vəziyyətə düşdüyü üçün əsaslı şəkildə yenidənqurma işləri aparılır.*

Yolun tikintisi ilə bağlı qəzetə müsahibə verən "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin "Naxçıvan Yol Təmir-Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki təhlükəsizlik üzrə mühəndisi Məhəbbət Ağahəsənov bildirir ki, uzunluğu 13,9 kilometr olan bu yol 3-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulur. Yolun yenidən qurulması nəticəsində vətəndaşlar və turistlərin ziyarətgaha rahat gediş-gəlişi təmin olunacaq, yol kənarında yerləşən əkin sahələrinə yük və sərnişin daşınması asanlaşacaq. 1 gediş 1 gəliş olmaqla, 2 zolaqdan ibarət və hər zolağın eni 3,5 metr olan yolun torpaq hissəsinin eni 10 metr, asfalt hissəsinin eni isə 7 metr olacaq.





Yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə mövcud boruların bərpası ilə yanaşı, 41 yerdə metal boru su keçidi quraşdırılacaq. Burada ümumi uzunluğu 50 metr olan 4 beton su keçidinin tikintisi, həmçinin yolda yerləşən 1 körpünün də əsaslı təmiri nəzərdə tutulur. Bununla yanaşı, avtomobil yolundan yağış və sel sularının kənarlaşdırılması üçün 15 000 metr uzunluğunda beton su kanalının tikilməsi və 220 metr uzunluğunda metal baryer quraşdırılması da planlaşdırılır. Yenidənqurma işləri yekunlaşdıqdan sonra zəruri olan yerdə yol nişanları, siqnal dirəkləri quraşdırılaraq, yol cizgi və yolgöstərici xətlər çəkiləcəkdir.

Muxtar respublikada yol infrastrukturunun hər ötən ilə nisbətdə daha da inkişaf etməsi regionların sosial-iqtisadi inkişafına təkan verməklə yanaşı, eyni zamanda əhalinin rahat hərəkətinə də əlverişli imkan yaradır.

✍ Fariz ƏHMƏDOV

## Gənclərin qış düşərgəsinə start verilib



Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və könüllü gənclərin iştirakı ilə "Gənclərin Qış Məktəbi" adlı düşərgə təşkil olunub. 3 gün davam edəcək düşərgə gənclərin şəxsi inkişafına töhfə vermək, onlara komanda ruhu aşılamaq və asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir.

Düşərgənin ilk günündə gənclər və idman naziri səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Məcid Seyidov iştirakçılarla görüşüb, müvafiq sahədə görülən işlər və dövlət siyasətinin əsas istiqamətləri barədə danışıb. Gənclərin ideya və fikirlərinin dövlətimiz tərəfindən daim diqqətə alındığını deyən Məcid Seyidov onları yenilikçi olmağa, aktiv fəaliyyətə səsləyib, düşərgənin əyləncəli tərəfləri ilə yanaşı, dostluq və inkişaf kontekstində böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Diskussiya formatında davam edən görüşdə gənclərin təklif və fikirləri dinlənilib, onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb.

Layihə çərçivəsində şəxsi inkişaf təlimləri, idman və intellekt yarışları, panel müzakirələr, film nümayişləri və əyləncəli oyunların keçirilməsi nəzərdə tutulub. Ümumilikdə, 50 nəfərin iştirak etdiyi düşərgədə fərqlənən gənclər mükafatlandırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

## Vətən igidləri ilə var olur



Uşaqlıqdan tanıyırdım onu, böyüdükcə onun necə cəfakeş bir ana olduğunun şahidi də oldum. Gənc yaşında həyat yoldaşını itirsə də, balalarını başına yığıb, onları böyüdüb boya-başa çatdırmışdı. İllər sonra onu nurlu üzü solmuş, lakin gözlərindəki qüruru daha da artmış gördüm. O mərd qadının adının üstünə şərəfli bir ad da yazılmışdı – şəhid anası. Nur üzü solsa da, gözlərindəki qürur “necə ki, qəhrəman analar var, bir ölüb min diriləcək bu xalq”, – deyirdi.

Qəhrəman oğulun rəsmləri ilə bəzənmiş otaqda söhbətimiz şəhidin həyat yolu barədə olanda Səmayə ana dedi ki, Ruzi öz istəyi ilə hərbçi oldu. Özü də bilirdi, bu formanı geyinməyin nə qədər məsuliyyətli olduğunu. Amma heç birimiz onu yolundan döndərə bilmədik. Necə ki, canımda can var Vətənə qulluq edəcəyəm, şəhid olsam,



haqqınızı halal edin, balalarımı da Vətənə layiq böyüdün. Qoy onlar da vətənsevər olsunlar, deyirdi həmişə. Ruzinin arzuları var idi. Şuşaya getmək, o cənnəti azad etmək. Oğlum bu arzusuna çatdı, amma Şuşanı gəzə bilmədi. Şuşa azad olan gündən bir gün əvvəl, 7 noyabrda Şuşada şəhid oldu. Onun azad etdiyi yerləri mən gedib gördüm. Cıdır düzündə balamın qanı axan yerdə indi güllər açır. O torpağa ayaq basanda, balamın son dəfə nəfəs aldığı havanı udanda bir anlıq onun ruhunun başım üstə dolaşdığını hiss etdim. Azan səsi eşidiləndə oğlumun gülən gözləri gəldi xəyalıma. Bildim ki, balalarımızın ruhu şaddır. Onların azad etdiyi torpaq gülüstana döndükcə onların ruhu şad olacaq.

Səmayə ana keçmişi xatırlayır: – İllər öncə torpaqlarımız işğal altında olanda övladlarım kiçik idi. Həmin vaxtlarda körpələrimi evdə tək qoyub Şərur çörək kombinatında gecəli-gündüzlü çörək bişirib, səngərdəki əsgərlərə göndərirdik. Elə olurdu ki, evə çörək gətirə bilmirdim. Təki Vətənin müdafiəçiləri ac qalmasın, onların çörəyi bol olsun ki, döyüşə bilsinlər. Balalarımı bir boşqab yeməklə çörəksiz də doyuzdura bilərəm, amma əsgər ac qalsa qolunda təpər olmaz, düşmənin qabağında kəsə bilməz, deyirdim. Bax, beləcə, böyüdü balalarımız. Naxçıvanda bir qarış torpaq işğal olunmasa da, Qarabağ yadelli tapdağına düşdü. Balalarımız böyüyüb o torpaqları geri qaytarmağa gedəndə “get oğul, kürəyindən vurulsan haqqımı sənə halal etməyəcəm”, – dedim. Onun şəhid xəbəri gələndə ilk sualım “harasından vurulub?” oldu. Yaxın dostları “ana, sinəsindən” deyəndə bildim ki, oğlum düşmənin üstünə qartal kimi şığıyıb. O, düşmənin qabağından qaçmayıb. İllər öncə atasını itirəndə Ruzim də oğlu Uğur yaşda idi. İndi onun ocağında iki oğul, bir qız balam böyüyür.

Ananın söhbətini dinləyə-dinləyə şəhid Ruzi İbrahimovun uşaqlığından son gününə kimi olan fotolarına, Şərur rayon Yengicə kəndindən Şuşaya kimi uzanan yolu özündə əks etdirən rəsmlərinə, illərlə əynində daşıdığı formalara, ağır çəkmələrə və hərbi formanın sinəsini bəzəyən “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medallarına, “Azərbaycan Bayrağı” ordeninə baxıram. Və deyirəm ki, necə ki, bu xalqın Səmayə ana kimi mərd qadınları, Ruzi kimi igid oğulları var, bu xalq hər zaman yaşayacaq, düşmənimiz “dəmir yumruğ”un zərbəsinin dadını hələ çox vaxt unutmayacaq.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Liv Bona Dea Hospitalın tibbi aksiyası uşaqlara həsr olundu

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Liv Bona Dea Beynəlxalq Xəstəxanasının əməkdaşlığı ilə Naxçıvan Sağlamlıq Mərkəzində növbəti tibbi aksiya keçirilib. Aksiyada hospitalın uşaq ürək-damar cərrahı, uzman doktor Şiraslan Baxşəliyev, uşaq kardioloqu, uzman doktor Bəhruz Əliyev, uşaq cərrahı, uzman



doktor Fərid Xanməmmədov və uşaq revmatoloqu, uzman doktor Vəfa Quliyeva iştirak edirdilər. Bu dəfəki aksiyada gələcəyimiz olan uşaqların sağlamlığının qorunmasında xidməti olan həkimlərimiz 120-yə yaxın uşağın müayinəsini həyata keçirdilər.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

*Bu gün sosial şəbəkələrdə tez-tez “kibercinayətkarlıq” termininə rast gəlirik. Bəs kibercinayətkarlıq dedikdə nə başa düşürük? Hüquq-mühafizə orqanları tərəfindən sözügedən cinayət hadisəsinin baş verməməsi, yaxud da qarşısının alınması üçün necə mübarizə aparılır? Əvvəlcə bu terminin nə olduğuna nəzər yetirək.*

## Kiberdələduzlardan necə qorunaq?

### *Bu il muxtar respublikada 35-dən çox kibercinayətkarlıq faktının üstü açılıb*




Kibercinayət cəmiyyətin informasiya təhlükəsizliyinə və kibermaraqlarına əhəmiyyətli ziyanın vurulması ilə xarakterizə edilən transmilli cinayət əməlidir.

Kibercinayətkarların sayı son illərdə daha da artıb. 2020-2021-ci illərdə koronavirus pandemiyası ilə bağlı dünyada və Azərbaycanda bir sıra qapanmalar və məhdudiyyətlər tətbiq olunmağa başlayanda ticarət və digər ictimai iaşə obyektləri də müvəqqəti bağlandı. Bu kimi məhdudiyyətlər zamanı vətəndaşlar internet üzərindən nağdsız əməliyyatların aparılmasına üstünlük verdi. Belə olan halda isə cinayətkarlar internet üzərindən vətəndaşların vəsaitlərini onlayn yolla talamağa başladılar. Bu da, öz növbəsində, kibercinayətkarlıq hallarının artmasına gətirib çıxardı.

Bu sahədə araşdırma apararkən aydın oldu ki, 2023-cü il ərzində kibertalamaların sayında əvvəlki illərlə müqayisədə daha çox artım müşahidə edilib. Elə götürək ötən günlərdə muxtar respublikamızın, eləcə də ölkəmizin bir sıra informasiya portallarında yayılan rəsmi xəbəri. Bildiyimiz kimi, ötən günlərdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin apardığı araşdırmalar nəticəsində kibercinayətlə məşğul olan şəxslər aşkar olunaraq saxlanılıb. İlkin dindirmə zamanı məlum olub ki, onlar müxtəlif yollarla vətəndaşları aldadaraq külli miqdarda vəsait mənimsəyiblər. Vətəndaşlara qarşı törədilmiş bu cür dələduzluq hallarının qarşısını almaq üçün muxtar respublikamızda hansı mübarizə tədbirlərinin həyata keçirildiyi haqqında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı, polis polkovniki Qasım Həsənov məlumat verərək bildirdi ki, muxtar respublikada il ərzində, ümumilikdə, nazirliyin Cinayət Axtarış İdarəsinin Kibercinayətkarlıqla mübarizə bölməsinin əməkdaşları tərəfindən 35-dən çox kibercinayətkarlıq faktının üstü açılıb. Kibercinayətkarların qurbanı olmamaq üçün, ilk növbədə, insanlar ayıq-sayıq olmalıdır. Praktika göstərir ki, insanların kibercinayətkarların qurbanına çevrilməsi özlərinin məsuliyyətsizliyi nəticəsində baş verir. Belə ki, hər şəxs öz kart məlumatlarını və digər şəxsi məlumatlarını tanımadığı şəxslərlə paylaşmamalıdır. Əlavə olaraq yüksək qazanc vəd edən elanlara və iş təkliflərinə inanmamalıdırlar. Bank adı ilə vətəndaşlara zəng edən kibercinayətkarlara heç vaxt öz bank və kart məlumatlarını, eləcə də kartın 3DS kodunu təqdim etməməyi də tövsiyə edirik.

Qasım Həsənov diqqətə çatdırdı ki, bunun qarşısını almaq üçün muxtar respublikada bir çox maarifləndirici tədbirlər həyata keçirilir. Daxili İşlər Nazirliyi tərəfindən kibercinayətkarlıqla bağlı mütəmadi olaraq sosial şəbəkələrdə xəbərdaredici videomateriallar, anonslar və digər bu kimi postlar paylaşılır. Əlavə olaraq DİN-in əməkdaşları tərəfindən məktəblərdə, digər təhsil müəssisələrində, eləcə də əhalinin sıx toplaşdığı ictimai yerlərdə bu sahədə profilaktiki söhbətlər aparılır. Onu da qeyd etməliyik ki, vətəndaşlar bu kimi dələduzluq halları ilə qarşılaşdıqda mütləq qaydada Daxili İşlər Nazirliyinə, o cümlədən yaşadıqları ərazinin polis orqanlarına yaxınlaşmalı, həmçinin Daxili İşlər Nazirliyinin ***102*** qaynar xəttinə zəng etməli, eləcə də nazirliyin sosial şəbəkə hesablarına bu barədə ətraflı məlumat verməlidirlər.

Sonda onu da qeyd edək ki, müvafiq qurumlar tərəfindən kibercinayətkarlıqla bağlı profilaktiki tədbirlər həyata keçirilsə də, baş verən hadisələr onu göstərir ki, bu kimi dələduzluq halları hələ də mövcuddur. Vətəndaşlar isə bu kimi dələduzluq hallarına qarşı həssas davranmalı, əldə etdiyi məlumatları dəqiqləşdirib yalnız rəsmi səhifələrə etibar etməlidir.

✍ **Bülbül QULİYEVA**

## Özüm bilərəm, haradan keçirəm!

***Qışın soyuğunda keçidin qarşısında dayanıb bizə yol hərəkəti mədəniyyəti öyrədən polisə minnətdar olmaq yerinə, onun “zəhmət olmazsa, keçiddən keçin” çağırışına “özüm bilərəm, haradan keçirəm” kimi heç bir etik çərçivəyə sığmayan cümləylə cavab vermək nə dərəcədə düzgündür? Naxçıvan şəhərindəki Əziz Əliyev küçəsində avtobus gözləyərkən müşahidə etdiyim bu mənzərə məni bu haqda yazmağa vadar etdi. Yolun digər tərəfində bazar və ticarət mərkəzi olduğundan bu istiqamətdə hərəkət edən avtomobillərin və piyadaların sayı çoxluq təşkil edir. Elə bu səbəbdən qanun keşikçiləri yol hərəkəti qaydalarına riayət etməyən piyadaların təhlükəsizliyi məqsədilə onlara keçiddən istifadə etmək lazım olduğunu bildirirlər. Lakin nədənsə onların bəziləri nə özləri, nə də sürücülər üçün yaratdıqları təhlükəni dərk etmirlər. Hər kəsin isə dilində bir bəhanə var: “tələsirəm”.***



Nəqliyyat vasitələrinin və piyadaların hərəkətini tənzimləmək və təhlükəsizliyini təmin etmək üçün yollarda işıqforlar quraşdırılır, keçidlər inşa olunur. Lakin piyadaların bir çoxunun nə işıqfora, nə də keçidlərə əhəmiyyət vermədiyini görürük. Nə üçün bu qaydanı polislər məcburən həyata keçirməlidirlər? Axı polis yollarda dayanıb hər kəsə piyada zolağından istifadə etməyi və işıqfordan keçmə qaydasını öyrədə bilməz. Şəhərimizdə kifayət qədər piyada keçidlərinin olmasına baxmayaraq, piyadaların əksəriyyətinin onlardan istifadə etməmələrinin səbəbi nədir? Piyadalar üçün kifayət qədər maarifləndirici tədbirlərin aparılmamasımı, yoxsa cəmiyyətimizdə hələ də piyada mədəniyyətinin formalaşmamasımı?

Suallarımızı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis kapitanı Ayaz İsmayılov cavablandırdı. Söhbət zamanı bildirdi ki, piyadaların qayda pozuntusunun qarşısını almaq üçün ilk olaraq piyada mədəniyyəti formalaşdırılmalıdır. Bu isə təkcə yol polisindən asılı olmamalıdır. Bunun üçün evlərdə valideynlər, bağçada və məktəblərdə isə müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Biz onsuz da yol polisi olaraq funksional vəzifəmizi hadisələrin sayını azaltmağa yönəltmişik. Təhlükənin baş verməməsi üçün əməkdaşlarla birlikdə xidmət aparır, hərəkətin təhlükəsizliyinin tam təmin edilməsi üçün öz vəzifəmizi həyata keçiririk. Lakin hadisələrin qarşısını almaq üçün tək polislə iş olmaz. Yol polisi hər yerdə insanları xoşagəlməz hadisələrdən qoruya bilməz. Elə yerlər var ki, nə işıqfor var, nə də polis. Bu o demək deyil ki, orada hökmən yol-nəqliyyat hadisəsi baş verməlidir. Yaşamızdan, tutduğumuz mövqeyimizdən asılı olmayaraq, yol hərəkəti qaydalarını öyrənməli və yerinə yetirməliyik. Hər birimiz yol hərəkəti haqqında qanunu və bu qanundan irəli gələn tələbləri bilməliyik. Əgər hər yerdə polis əməkdaşının köməyi ilə yolu keçiriksə, bu artıq özümüzü sərbəst idarə edə bilmədiyimiz anlamına gəlir.



Müsahibimiz deyir ki, insanlar istədikləri yerdə yolu keçməyin mümkünlüyünü düşünürlər. Bəzi piyadalar vəzifələri haqqında çox səhv məlumatlara malikdirlər. Həmin məlumatlara əsasən də hərəkət edirlər. Məsələn, deyirlər ki, piyada ayağını yola atdısa, sürücü harada olmasından asılı olmayaraq, saxlayıb yol verməlidir. Təəssüf ki, aparılan təbliğat işlərinə baxmayaraq, insanlar keçidlərdən düzgün istifadə etmədikləri üçün problemlər ortaya çıxır. “Yol hərəkəti haqqında” Qanunun 40-cı maddəsində piyadaların vəzifələri sadalanır. Piyadaya deyilir ki, siz piyada keçidinə daxil olmazdan əvvəl sağa-sola baxmalısınız, yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin olub-olmamasına fikir verməlisiniz, onun təxmini sürət həddini hesablamalısınız ki, mən ayağımı piyada keçidinə qoysam, sürücü əyləci basmağa məşını saxlaya biləcəkmi, yoxsa məni vuracaq? Eləcə də digər vəzifələr...

Müsahibimizin fikrincə, nəqliyyat hadisələrinin baş verməsinə əsas səbəb sürücü səhlənkarlığı və piyada diqqətsizliyidir. O deyir ki, baş verən qəzaların mütləq əksəriyyəti yol hərəkəti qaydalarının pozulmasından yaranır. Bəzən istər sürücülər, istərsə də piyadalar qaydaları bildiyi halda pozur. Bu da bədbəxt hadisələrin baş verməsinə gətirib çıxarır. Statusundan, vəzifəsindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, qanun hamı üçün eynidir. Hər birimiz qaydalara riayət etməli, yol hərəkəti zamanı təhlükəli vəziyyət yaratmamalı, qanunun tələblərindən kənara çıxmamalıyıq. Çünki yol hərəkəti qaydalarına əməl etmək təkcə vəzifə borcumuz deyil, həm də vətəndaşlıq borcumuzdur.

✍ **Gülcamal TAHİROVA**

### *İtmişdir*

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Novruzova Babəbəyim Vəli qızının adına olan 1252A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Alışar kəndində yaşamış Məmmədova Sənubər Cəfər qızının adına olan 164A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Mahmudov İsmayıl Tofiq oğlunun adına 14.07.2016-cı ildə Şərur Rayon Texniki Peşə və Sürücülük Məktəbi tərəfindən verilmiş AA-000926 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 740